

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 2 (21.663)

*6 yanvar 2017-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyası 2017-ci il yanvar ayının 7-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2017-ci il büdcəsinin təsdiq edilməsi
4. “İnsan orqan və ya toxumalarının transplantasiyası” haqqında Naxçıvan Muxtar Respublikası Qanununun qəbul edilməsi
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 yanvar 2017-ci il*

## H.Y.Rüstəmovun Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hicran Yaqub oğlu Rüstəmov Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 5 yanvar 2017-ci il*

## Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Biz iqtisadi sahədə əldə edilmiş nailiyyətləri insan kapitalına çeviririk”.***

Ölkəmizdə insan kapitalının formalaşmasında təhsil sistemi mühüm yer tutur. Naxçıvan Muxtar Respublikasında da təhsil quruculuğu prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.





Həyata keçirilən kompleks quruculuq tədbirləri zamanı yeni məktəb binalarının inşasına xüsusi diqqət yetirilir, sağlam və intellektli gənc nəslin yetişdirilməsi qayğısına qalınır.

Yanvarın 5-də Naxçıvan şəhərinin Tumbul kəndindəki 13 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məktəbin direktoru Canpolad Rüstəmov çıxış edərək demişdir ki, hər il muxtar respublikamızda müasir avadanlıqlar və informasiya texnologiyaları ilə təchiz olunmuş məktəblər istifadəyə verilir. Təhsilə göstərilən qayğı xoşbəxt gələcəyimizin möhkəm bünövrəsini yaradır. Naxçıvan şəhərinin Tumbul kəndindəki 13 nömrəli tam orta məktəbdə də tədrisin yüksək səviyyədə təşkili üçün lazımi şərait var. Canpolad Rüstəmov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Hər bir ölkənin inkişafı təhsillə bağlıdır. O ölkələr inkişaf edir, o ölkələrdə gələcəyin təminatçıları olan vətənpərvər gənclər yetişdirilir ki, orda təhsilə yüksək diqqət və qayğı göstərilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Məktəblərdə yaradılan müasir tədris şəraiti gənclərin hərtərəfli hazırlanmasına təminat verir”.*** Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbində də kompüter və elektron lövhəli siniflərin, laboratoriyaların, kitabxananın, hərbi kabinənin, şahmat otağının, idman zalının və digər tədris avadanlıqlarının istifadəyə verilməsi şagirdlərin hərtərəfli hazırlanmasına imkan verir. Müəllimlər yaradılan şəraitdən səmərəli istifadə etməli, məktəbdə tədris müasir tələblər səviyyəsində qurulmalıdır.

Ali Məclisin Sədri demişdir: Bu gün ümummilli liderimizin yolunu uğurla davam



etdirən ölkə Prezidenti təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərir, bu sahədə lazımi normativ hüquqi aktlar qəbul olunur. Hazırda ölkəmizdə təhsilin bütün pillələri təmin edilmiş, gənc nəsil üçün müasir tədris şəraiti yaradılmışdır. Bununla yanaşı, gənclərin xarici ölkələrdə ali təhsil alması üçün də dövlətimiz tərəfindən lazımi köməklik göstərilir. Bir sözlə, Azərbaycan dövləti öz gələcəyini təmin etmək üçün gənclərin hərtərəfli təhsil alması qayğısına qalır. Yaradılan şəraitin nəticəsi olaraq isə vətənpərvər, təhsilli və peşə sahibi olan gənclər yetişdirilir. Bu da həm cəmiyyət, həm də dövlət üçün vacib məsələdir.

Ali Məclisin Sədri demişdir: Məktəbin nailiyyətləri onu deməyə imkan verir ki, burada müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulub. Yaradılan müasir tədris şəraiti gələcəkdə nailiyyətlərin daha da artmasına imkan verəcək, məktəbdə təhsilli və vətənpərvər gənclər yetişdiriləcəkdir.

Ali Məclisin Sədri bu yolda kollektivə uğurlar arzulamış, məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, 376 şagird yerlik məktəbdə 4-ü elektron lövhəli olmaqla, 18 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, müəllimlər otağı, 2 şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. 2016-2017-ci tədris ilində 13 nömrəli tam orta məktəbin birinci sinfinə 25 şagird qəbul olunmuşdur. Məktəbin kitabxanasında 3476 dərslik və 3340 bədii ədəbiyyat olmaqla, 6816 kitab vardır.

Məktəbdə tədris müasir texnologiyalar əsasında qurulmuş, 42 kompüter quraşdırılaraq internetə qoşulmuş, ayrı-ayrı fənlərə aid elektron resurslardan istifadə və elmi-texniki yeniliklər barədə məlumat əldə etmək imkanı yaradılmışdır.

Məktəb muzey şəbəkəsinə qoşulmuşdur. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Bəhruz Kəngərli Muzeyi ilə muxtar respublikanın 204 məktəbi arasında keçirilən distant dərsi izləmiş, şagirdlərin iştirakı ilə muzeylərdə açıq dərslərin keçirilməsini tapşırmışdır.

Şahmat sinfində şahmat masaları və lövhələr qoyulmuşdur. Hərbi kabinə və idman zalı müasir tədrisin tələbləri səviyyəsində qurulmuşdur.

Ali Məclisin Sədri şahmat fənninə aid dərsliklərin hazırlanması, idman dərslərinə və gənclərdə hərb sənətinə marağın artırılmasının əhəmiyyətini vurğulamışdır.

Müəllimlər otağında məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir: 13 nömrəli tam orta məktəbin kollektivi yeni ili yeni əhval-ruhiyyə ilə qarşılayır. Müasir tədrisin tələblərinə cavab verən məktəbdə gələcəkdə daha uğurlu nəticələr qazanılacaqdır. Hər bir gəncin gələcəyinin uğurlu olması həm ailəsi və cəmiyyət, həm də dövlət üçün vacib məsələdir. Ona görə də gənclər yaxşı təhsil almalı, peşə öyrənməli, dünyagörüşünü artırmalı, vətənpərvərliyini öz əməli işi ilə göstərməlidir. Naxçıvan Muxtar Respublikasında gənclərin maraqlarına uyğun peşə seçməsi üçün lazımi şərait vardır. Ali təhsil müəssisələri, peşə məktəbləri, Heydər Əliyev adına Hərbi Lisey, Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey fəaliyyət göstərir. Gənclərin maraqlarına uyğun peşə sahələrinə yönləndirilməsi, onların hərtərəfli hazırlanması isə müəllimlərin üzərinə düşən əsas vəzifələrdir.

Kollektiv adından minnətdarlıq edən müəllim Nuranə Abbasova gənclərin hərtərəfli hazırlanmasında səylərini əsirgəməyəcəklərini bildirmişdir.

Məktəb binasının həyətində də abadlıq işləri aparılmış, mini-futbol meydançası istifadəyə verilmişdir.

*Ardı 2-ci səhifədə*

## Tumbul Kənd Mərkəzinin açılışı olmuşdur






Yanvarın 5-də Tumbulda yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, binada rabitə evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, polis sahə məntəqəsi, baytarlıq məntəqəsi, statistika otağı, feldşer-mama məntəqəsi, fondunda 4900 ədəbiyyat olan kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və 44 yerlik iclas zalı vardır. Kənddə müasir rabitə sistemi yaradılmış, fiber-optik xətt çəkilmiş, 512 yerlik ATS quraşdırılmış və poçt bölməsi fəaliyyətə başlamışdır. Tumbulda 83 internet istifadəçisi vardır.

Tumbul kəndində 2003 nəfər əhali yaşayır. Onlardan 407-si dövlət büdcəsindən əməkhaqqı, pensiya və müavinət alır. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün ayrılan müasir iş otaqlarında sakinlərə nümunəvi xidmət göstəriləcəkdir.

Feldşer-mama məntəqəsi üçün 4 otaq ayrılmış, ilkin tibbi xidmətin təşkili təmin edilmişdir. Bildirilmişdir ki, hazırda 36 hamilə qadın məntəqədə qeydiyyatdadır. Hamilə qadınlara vaxtlı-vaxtında patronaj xidməti göstərilir, yeni doğulmuş uşaqlara peyvənd vurulur.

Ali Məclisin Sədri kənd mərkəzindəki dövlət qurumlarının fəaliyyəti ilə maraqlanmış, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

## Xidmət mərkəzində 9 kənd sakini işlə təmin olunmuşdur






Yanvarın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tumbul kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Xidmət mərkəzində bərbərxana, dərzi, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzdə xidmət sahələri üzrə 9 sakin işlə təmin olunmuşdur. İşlə təmin olunanlar muxtar respublikadakı peşə məktəblərində müvafiq sahələr üzrə təhsil almışlar.

Ali Məclisin Sədri yerli məhsulların satışına üstünlük verilməsi və əhaliyə nümunəvi xidmət göstərilməsinin vacibliyini bildirmişdir.

## Tumbul kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir





Yaşayış məntəqələrində içməli su və kanalizasiya şəbəkələrinin istifadəyə verilməsi insanların rahatlığına xidmət edən mühüm sosial tədbirdir. Muxtar respublikada bu sahədə kompleks işlər həyata keçirilir, əhali ekoloji təmiz və dayanıqlı içməli su ilə təmin olunur. Şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də yeni içməli su və kanalizasiya şəbəkələri qurulur. Bu sahədə görülən işlərin nəticəsidir ki, ötən il muxtar respublikanın 18 kəndində yeni içməli su sistemi istifadəyə verilmişdir.

Yanvarın 5-də Naxçıvan şəhərinin Tumbul kəndində içməli su və kanalizasiya şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi üzrə Tumbul kəndində 18 kilometrdən artıq içməli su və 15 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi çəkilmiş, mənzillərdə sayğaclar quraşdırılmışdır. Kənddə, ümumilikdə, 503 abonent içməli su və kanalizasiya şəbəkəsinə qoşulmuşdur. İçməli su şəbəkəsi üzərində 2 təzyiq qaldırıcı, 9 yanğın hidrantı, 4 suburaxıcı quraşdırılmışdır. Tullantı sularını toplayan boru xətti Naxçıvan şəhər kanalizasiya şəbəkəsinə birləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tumbul kənd içməli su şəbəkəsinin açılışını bildirən qurğunu işə salmışdır.

Sonra kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Bu gün Tumbul kəndində görülən işlər dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının göstəricisidir. Tumbul kəndində içməli su və kanalizasiya sistemlərinin, məktəb binasının, kənd və xidmət mərkəzlərinin, yolun istifadəyə verilməsi, mənzillərin dayanıqlı təbii qaz və elektrik enerjisi ilə təmin olunması, müasir rabitə xidmətinin göstərilməsi kənddə əhalinin rahat yaşaması ilə yanaşı, həm də məskunlaşmanın artmasına səbəb olmuşdur. Bütün bunlar isə ölkə Prezidentinin imzaladığı Qanunla Tumbul kəndinin Naxçıvan şəhərinə birləşdirilməsindən sonra mümkün olmuşdur.

Ali Məclisin Sədri demişdir: Vaxtilə Tumbul kəndində artezian qazılmış, kəhriz bərpa edilərək istifadəyə verilmişdi. Lakin bu, əhalinin içməli su tələbatını tam ödəmirdi. Bu gün isə kənddə yeni içməli su sistemi ilə yanaşı, həm də kanalizasiya şəbəkəsi istifadəyə verilir. Görülən işlərdən sonra Tumbul kəndi tamamilə müasirləşmişdir. Yaradılan şəraitdən səmərəli istifadə olunmalı, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, təmizliyə əməl edilməlidir.

Sakin Abbasəli Hüseynov minnətdarlıq edərək demişdir ki, inkişaf və müasirlik muxtar respublikanın hər bir kəndini əhatə etmişdir. Tumbulda şagirdlər köhnə məktəb binasında təhsil alırdı. Dövlət qurumları üçün lazımi iş şəraiti yox idi. İçməli su təminatında çətinliklər vardı. Lakin bu gün sakinlərin bu qayğıları həll olunub. Kənddə müasir məktəb binası, kənd və xidmət mərkəzləri, yol istifadəyə verilmiş, hər bir mənzil dayanıqlı içməli su ilə təmin edilmişdir. Su həyat deməkdir. Bu gün Tumbul kəndinin həyatında yeni bir dövr başlayır. Bütün bunlar ölkəmizdə insanlara göstərilən qayğının nəticəsində mümkün olmuşdur.

* * *

Tumbul kəndində 2 kilometrlik kənddaxili avtomobil yoluna asfalt örtük salınmış, beton kanal çəkilmiş və 5 su keçidi qoyulmuşdur. Kənddə rabitə xətləri də yenilənmiş, 2740 metrlik müxtəlif tutumlu kabel xətti, 800 metrlik elektrik xətti, 230 metr yeraltı elektrik xətti çəkilmiş, qaz xətlərində təmir işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***"Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 dekabr 2016-cı il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

## Gənclər hərbi xidmətə yola salınır



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədr müavini Sultan İsmayılov, ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov çıxış edərək əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordumuz vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi ordumuzun istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir.

Qeyd olunub ki, 2016-cı ilin aprel döyüşlərində ordumuzun düşmənə sarsıdıcı zərbələr vurması, iki min hektardan çox ərazinin işğaldan azad edilməsi silahlı qüvvələrimizin gücünü hər kəsə sübut etdi. Təsadüfi deyil ki, əldə olunmuş uğurların qazanılmasında əsgərlərimizin mənəvi-psixoloji və döyüş hazırlığı, ordumuzun müasir hərbi texnikalarla təminatı mühüm yer tutur. Bu gün silahlı qüvvələrimizin muxtar respublikada yerləşən hərbi hissələrində də xidmət üçün yaradılmış müasir şərait, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına göstərilən diqqət çağırışçı gənclərin böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola salınmasına şərait yaradıb. Buna görə də hər bir çağırışçı gənc xidmətdə olarkən hərbi işin incəliklərinə dərindən yiyələnməli, Vətən qarşısında borcunu layiqincə yerinə yetirməlidir.

Xidmət rəisi hərbi xidmətə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

**Xəbərlər şöbəsi**

## Qara Abbas oğlu Fərzəliyev



Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Abbas oğlu Fərzəliyev 2017-ci il yanvarın 2-də ömrünün 94-cü ilində vəfat etmişdir.

Qara Fərzəliyev 1923-cü il oktyabrın 22-də Naxçıvan şəhərində anadan olmuş, 1941-ci ildə Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır. O, İkinci Dünya müharibəsi illərində 402-ci Azərbaycan diviziyasının 678 saylı istehkamçı batalyonunda, 77-ci Azərbaycan diviziyasının 105-ci atıcı polkunda Krasnodar və Rostov vilayətlərindəki şəhər və kəndlərin alman faşistlərindən azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 1944-cü ildə kiçik leytenant rütbəsi alan Qara Fərzəliyev bundan sonra döyüş yolunu 417-ci diviziyanın 5-ci bölüyünün taqım komandiri kimi davam etdirmiş, Baltikyanı respublikaların azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak etmişdir.

Göstərdiyi şücaətlərə görə Qara Fərzəliyev "Qırmızı Bayraq" ordeni və müxtəlif medallarla təltif edilmişdir.

Qara Fərzəliyev müharibədən sonra 1957-ci ilədək Uralda, Şərqi Sibirdə, Stavropol və İrkutsk vilayətlərində rota komandiri, siyasi işlər üzrə müavin, 1957-1961-ci illərdə Naxçıvan Şəhər Mülki Müdafiə İdarəsinin rəisi, 1961-1995-ci illərdə Naxçıvan Mülki Müdafiə Qərargahında məxfi işlər üzrə rəis, 1995-ci ildən isə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri vəzifəsində çalışmışdır.

Qara Fərzəliyev istər hərbi xidmət, istərsə də sonrakı fəaliyyəti dövründə daim öz təşəbbüskarlığı ilə seçilmiş, ictimai işlərdə fəallıq göstərmiş, gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində yaxından iştirak etmişdir.

Böyük Vətən Müharibəsi veteranı Qara Fərzəliyevin xatirəsi unudulmayacaqdır.

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisi**
**Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti**
**Naxçıvan Şəhər İcra Hakimiyyəti**

## Əsl vətənpərvər əsl vətəndaşdır

*Vətən doğma torpaq, ana yurddu. Üzərində yaşadığımız torpaq, bu dünyada güvəndə olduğumuz tək yerdi. Bu kainatda tək səcdəgahımız, tək istinadgahımızdı. Vətən bu eldə-obada gördüklərimizin məcmusudu.*

Saniyələr dəqiqələrə, dəqiqələr saatlara, saatlar günlərə, günlər aylara, aylar illərə, illər qərinələrə dönüb, hər şey dəyişilib. Ancaq Vətən öz yerini dəyişməyib. Bəzən bu torpaqlar yağılar arasında dörd-beş yerə bölünüb, ancaq xalqın düşüncəsində Vətən bütöv olaraq qalıb.

İnsan bir zaman yurdundan-yuvasından ayrı düşə bilər. Dünyanın hansısa nöqtəsində şad-xürrəm, bütün nemətlərdən dadaraq gün keçirə bilər. Ancaq bu hal bir müddət davam edər, həmin insanın ürəyində keçmişlə bağlı xatirələr baş qaldırar, həsrət ürəyini göynədər, özünü insanlar içində yad, şəhərlər içində qərib hiss edər. Və elə o zaman hansısa qüvvə onu geri, doğulub boya-başa çatdığı torpaqlara çəkər, bu qüvvə get-gedə qarşısıalınmaz gücə çevrilər, bu gücün qarşısında dünyanın bütün naz-nemətləri gözdən düşər. Həmin insan hər şeyi buraxıb öz yurduna qayıdar, bu dünyadan gedənlərinin məzarını ziyarət edər, doğmalarına baş çəkər, ağsaqqalının əlindən, gəncinin üzündən öpər. Hiss edər ki, o, yenidən yaşayır, çünki o, Vətənə qayıdıb, illər uzunu həsrətində olduğu Vətənə.

Fani dünya heç kimə qalmayıb, heç bundan sonra da qalmayacağı dəqiqdir. Bu dünyada qalan insanın əməlləridi. Müdriklərimiz deyib ki, iki cür əməl var, bir insanlara qarşı əməlindi, bir də Vətən qarşısında əməlindi. Vətən qarşısında nə qədər yaxşı əməl sahibi olsan, bu torpağa nə qədər dərin köklərlə bağlansan, bu torpaq üzərində yaşayanlar da səni unutmayacaq.

İlahinin bizə ərməğanıdı Vətən! İndi hər yerdə tökülən qanları, günahsız yerə üzərinə bombalar tökülən körpələri görəndə, harda olursaq olaq, tez evə qaçıb körpə balalarımızı bağrımıza basmaq, qucaqlamaq, öpüb-oxşamaq, onları qorumaq istəyirik. Tanrıya dualar edirik ki, körpələrimiz belə qan-qadaların şahidi olmasın, qorxusuz, qayğısız böyüsünlər. Bəzən unuduruq ki, o körpələrin Vətəni də elə günahsızlarla birlikdə ölür. Ona görə də bütün bunları görəndə Vətənimizi də elə körpələrimiz kimi bağrımıza basmalıyıq, dua etməliyik ki, bu qan-qadalar xalqımızdan uzaq olsun, Vətən torpaqlarına körpə qanı axmasın. Çalışmalıyıq ki, heç bir kənar qüvvə bizim birliyimizi, dövlətə olan inamımızı sarsıda bilməsin. Əgər belə olsa, Vətənimiz də olacaq, gələcəyimiz də.

Bəs kimdir əsl vətənpərvər? Bu sualın cavabını güclü, qüdrətli Azərbaycanda yaşayan milyonlarla insan çox yaxşı bilir. Əsl vətənpərvər Vətənin gələcəyi naminə çalışan, Vətənin mənafeyini şəxsi mənafeyindən çox-çox yüksəkdə tutan, dar gündə əldə silah sərhədlərimizin keşiyini çəkmək üçün yollanmağa hazır olan insandır. Əsl vətənpərvər şagirdlərini öyrətməklə bərabər, həm də özü öyrənən müəllimdir, əsl vətənpərvər yalnız fəaliyyət göstərdiyi sahəyə xeyir gətirməyi düşünən mühəndisdir, tədqiqatları ilə elmə yenilik gətirən alimdir, xalqın mənafeyini hər şeydən uca tutan siyasətçidir. Bir sözlə, əsl vətənpərvər əsl vətəndaşdır!

Bu gün Vətənimizin gələcək taleyi əsl vətənpərvərlərin əlindədi. Bu haqq, bu ixtiyar Tanrı iradəsi, Tanrı istəyidi. Gün gələcək ki, bu Vətən öz fədailərinin sayəsində bütövləşəcək, işğal altındakı torpaqlarımız işğaldan azad olunacaq.

**✍ Səbuhi HÜSEYNOV**

*Amerikalı tədqiqatçı və jurnalist Peter Tasenin dekabrın 25-də Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən* ***foreignpolicy.org*** *və* ***eurasiareview.com*** *qəzetlərində, həmçinin Rusiya Federasiyasında fəaliyyət göstərən* ***vestikavkaza.ru****, eləcə də Avropanın ən nüfuzlu portalı* ***moderndiplomacy.eu*** *və* ***caspiantimes.com*** *xəbər saytlarında "Ordubad: Qafqaz regionunda dini tolerantlığın beşiyi" adlı məqaləsi yerləşdirilmişdir. Həmin məqaləni qəzetin bugünkü nömrəsində dərc edirik.*

## Ordubad: Qafqaz regionunda dini tolerantlığın beşiyi







Naxçıvan Muxtar Respublikasının Ordubad bölgəsinin dini memarlığı Azərbaycan İslam mədəniyyətində yeni cərəyan formalaşdıraraq xalq arasında dərin dini inanc hissi, dini tolerantlıq, mədəniyyətlərarası dialoq və multikultural dəyərləri özündə əks etdirir. Ordubad rayonu dini birlik və unikal memarlıq xəzinəsinin simvolu olaraq Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən əsası qoyulmuş memarlıq məktəbinin üstün dəyərlərini özündə birləşdirərək dünyaya Azərbaycan vətənsevərlik hissini nümayiş etdirir. Naxçıvan şəhəri 2018-ci ildə İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir. 2018-ci ildə Naxçıvana səfər edəcək YUNESKO-nun xüsusi beynəlxalq tədqiqatçı alimləri Ordubad rayonunda yerləşən dini abidələrə baş çəkməlidirlər.

Ordubad rayonu Sovet İttifaqının mərkəzi Moskva şəhərinə və digər bölgələrinə ixrac etdiyi ərik növləri ilə məşhur olmuşdur. Ancaq rayondakı dini xəzinələr, məscidlər və arxeoloji abidələr o qədər də tanıdılmamışdır. Bu abidələrin dünyaya tanıdılmasına ehtiyac vardır. Ordubad şəhərində 7 əsas küçə vardır. Küçələrin hər birində minarəsiz məscidlər, yeraltı su sistemləri və iki fərqli səsə malik qədim dəmir döymə halqalı giriş qapısı ilə təchiz olunmuş Qafqaz regionuna xas evlər yerləşir.

Ordubad şəhərində Naxçıvan memarlıq məktəbinin xüsusi dəyərlərini əks etdirən çoxlu sayda abidələr mövcuddur və Dilbər məscidi həmin abidələrdən biridir. Məscid dini mərasimlər üçün yerli əhaliyə həmişə açıq olub. Məscid düzbucaq formalı və sütunludur. Məscidlərin əksəriyyəti Naxçıvan memarlıq məktəbini təmsil edirlər. Dilbər məscidi memarlıq kompozisiyasına görə XVII əsrə aid edilir. Məscidin mehrabı, şəbəkəli pəncərələri və fasadında giriş portalı vardır. Əsas giriş və yan tərəflər kəsmə şəbəkəli böyük pəncərələrlə işlənmişdir. Şəbəkəli pəncərələr və baştağın asimmetrik yerləşməsi məsciddə olan digər valehedici kompozisiyadır. Dilbər məscidi Ordubad memarlığı və dağ mənzərəsinin mükəmməl harmoniyasını özündə əks etdirir. Yerli əhalinin məlumatlarına görə, məscid Dilbər adlı qadının şərəfinə inşa edilmişdir və bu məscid Qafqaz regionunda qadınların müsəlman cəmiyyətində mühüm rolunu göstərən İslam inanc mərkəzi kimi ortaya çıxmışdır.

Digər dini abidə Ordubad rayonunun Dırnıs kəndində yerləşən Dırnıs məscididir. Kənddə həcminə görə ən iri məscid olduğundan, el arasında "Böyük məscid" (Came məscidi) adlanır. Məscidin əsas girişi qərbdəndir. Qadınlar üçün isə giriş şərq tərəfdəndir. Tavan beş dirəyin üstündə dayanıb. Şərq və şimal divarının qarşısında qadınlar üçün balkon düzəldilib. Məscidin şimal divarında 3, qərb divarında 2, cənub divarında isə 3 böyük pəncərə vardır. Məscidin dirəklərindən birinin sütun başlığı üzərində qara rənglə yazılan kitabədən aydın olur ki, məscid 1920-1921-ci illərdə təmir olunmuş və orada təmir işlərini ordubadlı usta Həsən həyata keçirmişdir. 1999-cu ildə məscid yenidən təmir edilmişdir. Memarlıq quruluşuna görə məscid XVII əsrə aid edilir.

Ordubad rayonunun Gənzə kəndində tarixi-memarlıq abidəsi olan Hacı Hüseynqulu məscidi yerləşir. Yerli camaatın dediyinə görə, məscidi Əcəmi Naxçıvani məktəbinin memarlıq üslubunu təbliğ edən Hacı Hüseynqulu adlı nüfuzlu şəxs tikdirib. Hacı Hüseynqulu dünyasını dəyişdikdən sonra o, məscidin cənub divarının qarşısında dəfn olunmuşdur. Məsciddə aparılan təmir işləri zamanı qəbrin üstünə mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Hacı Hüseynqulu, XVI əsr" sözləri həkk edilmişdir. Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salonlardan ibarətdir. Deyilənə görə, XX əsrin əvvəllərində qərb tərəfdən əlavə bina tikilərək qədim binaya birləşdirilmişdir. Məscidin əsas qədim hissəsi daşdan tikilmiş üç böyük sütunun və divarın üstündə dayanıb. Sütunların arası və sütunlarla divarın arası tağvarı birləşdirilib. Divarların qalınlığı 1 metrdir. Məscidin içərisində, divarlarda 5 taxça düzəldilib. Girişin önündə eyvan var. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır. Məscid təmir olunarkən divarlarda rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı məscidin cənub-qərb tərəfində gözəl bir minarə ucaldılıb. Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlik və orucluq aylarında burada dini mərasimlər də icra olunur.

2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı ərazidə tədbirlər təşkil olunarkən Hacı Hüseynqulu məscidində də yaddaqalan tədbirlər keçiriləcəkdir. Məscidin cənubunda olan qəbiristanlıq da vaxtilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş və həmin sahəni qəbiristanlıq üçün bağışlamışdır. Qəbiristanlıq ərazisində olan məzar kitabələrinə əsasən demək olar ki, Hacı Hüseynqulu XVI əsrdə yaşamış və məscidi də həmin vaxt inşa etdirmişdir.

## Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının ilk sərnişinləri razılıq edirlər





***Xəbər verdiyimiz kimi, 2016-cı il dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayıb.***

Bu münasibətlə həmin gün keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərnişin qatarının xeyirli-uğurlu olmasını arzulayıb, təşkilatçılara və əməyi olanlara təşəkkürünü bildirərək deyib: "Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarının fəaliyyətə başlaması dövlətlərarası və xalqlararası münasibətlərimizin daha bir inkişaf göstəricisi kimi məmnunluq doğurur. Eyni zamanda sərnişin qatarının fəaliyyəti insanlarımızı bir-birinə daha da yaxınlaşdıracaq, gediş-gəliş artacaq, turizm və humanitar sahədə əməkdaşlıq genişlənəcəkdir". Dekabrın 29-da saat $11^{00}$-da sərnişin qatarı ilə 57 sərnişin Naxçıvan Muxtar Respublikasından İran İslam Respublikasına yola salınıb. Adıçəkilən istiqamət üzrə hərəkət edən qatar yanvarın 3-də ilk sərnişinlərini İran İslam Respublikasından Naxçıvana çatdırıb. Həmin sərnişinlərdən bir neçəsi öz təəssüratlarını "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşüb.

Rza İsmayılov, Babək rayon sakini: "Əvvəllər Məşhəd şəhərinə avtobuslarla gedib-gəlirdik. Yol uzaq olduğundan avtobusla getmək biz sərnişinlər üçün o qədər də asan deyildi. Xüsusilə yaşlı insanlar üçün müəyyən çətinliklər yaradırdı. Qatarda getmək isə əksinə, çox rahatdır, sərnişin vaqonlarında hərtərəfli şərait yaradılıb. Sevinirik ki, belə bir layihə həyata keçirilib. Bu xəttin istifadəyə verilməsi Naxçıvanla İran İslam Respublikası arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək, hər iki tərəfdən sərnişinlərin rahat gediş-gəlişini təmin edəcək".

Hadi Qasımi, İran vətəndaşı: "Məşhəd şəhərindən Naxçıvana bu qatarla gəldim. Çox rahat bir səfər etdik. Vaqonlarda sərnişinlər üçün hər cür şərait yaradılıb, yolda heç bir çətinliklə rastlaşmadıq. Havanın soyuq olmasına baxmayaraq, bütün vaqonlar istiliklə təmin olunublar. Sərnişin qatarı həm xidmət, həm də qiymət baxımından sərfəlidir. İnanıram ki, bundan sonra Təbrizdən, Tehrandan, Məşhəddən Naxçıvana gəlmək istəyən İran vətəndaşları dəmiryol nəqliyyatına üstünlük verəcəklər, eyni zamanda bu, hər iki tərəfdən turist sayının artmasına səbəb olacaq".

Sərnişinlərdən Babək rayon sakini Gövhər İsmayılova isə fikirlərini belə ifadə etdi: "Məşhəd ziyarətindən gəlirəm. Qatarla səfərimiz o qədər rahat və gözəl keçdi ki, vaxtın haradan gəlib keçdiyinin fərqinə varmadıq. Vaqonlarda sərnişinlər üçün hər cür şərait yaradılıb. Bələdçilərdən razıyıq, yolboyu bizimlə çox maraqlandılar, yaxşı xidmət etdilər. Arzum budur ki, paytaxt Bakı ilə də belə bir yolumuz olsun. Bu işdə əməyi olanlara öz minnətdarlığımı bildirirəm".

Xatırladaq ki, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış Çərçivə Sazişində öz əksini tapıb. Sərnişin qatarı həftədə 2 dəfə fəaliyyət göstərir. Bilet satışı Naxçıvan və Culfa dəmiryol stansiyalarında həyata keçirilir. Kupetipli müasir sərnişin vaqonları yataq dəsti ilə təmin olunub və sərnişinlərin rahatlığı üçün lazımi şərait yaradılıb. Naxçıvandan yola düşən sərnişin qatarı 1858 kilometr məsafə qət etdikdən sonra Məşhəd şəhərinə çatır. Bir istiqamətdə hərəkət vaxtı, təxminən, 30 saatdır.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1107 | 79,7 | 80,0 | 100,4 |
| 2. | Şahbuz rayonu | 557 | 40,1 | 40,2 | 100,2 |
| 3. | Kəngərli rayonu | 833 | 60,0 | 60,1 | 100,2 |
| 4. | Culfa rayonu | 1112 | 80,1 | 80,2 | 100,1 |
| 5. | Babək rayonu | 2027 | 150,0 | 150,1 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5795 | 440,4 | 440,5 | 100,0 |
| 7. | Şərur rayonu | 2007 | 146,5 | 146,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 305 | 22,0 | 22,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15683 | 1282,7 | 1383,7 | 107,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29426** | **2301,5** | **2403,3** | **104,4** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 29 milyon 426 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 301 min 500 manat olmuş, cəmi 2 milyon 403 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 104,4 faizini təşkil edir.

## 1 fevral 2017-ci il tarixdə Naxçıvan şəhərində saat $11^{00}$-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | Güzəştli satışda iştirak hüququ olan şəxslərin sayı | Əmlakın start (satış) qiyməti (100%) (manat) | Əmlakın ilkin satış qiyməti (manat) | Güzəştli satışa yönəldilən hissəsi (15 %) (manat) | 10 % beh |
|---|---|---|---|---|---|---|---|
| 1. | "Duzdağ" hoteli | Duzdağ massivi | 22 | 17.288.686,78 | 14.695.383,76 | 2.593.303,02 | 1.469.538,38 |
| 2. | Tədris-Ticarət Mərkəzi | Naxçıvan şəhəri | x | 1.534.424,73 | 1.534.424,73 | x | 153.442,47 |

**Qeyd:** Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

*1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd*

*2. Müəyyən edilmiş formada sifariş*

*3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz*

*4. Kiçik müəssisə kimi özəlləşdirilən müəssisənin ilkin (satış) qiymətinin 15%-nin özəlləşdirilməsi haqqında məlumat.*

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Əmək və icra intizamının pozulmasına görə işçiyə hansı intizam məsuliyyəti tətbiq oluna bilər?***

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 186-cı maddəsinə əsasən işəgötürən və işçi Əmək Məcəlləsi ilə və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş vəzifələrini yerinə yetirmədikdə və ya hüquqlarından sui-istifadə etdikdə, yaxud əmək müqaviləsi üzrə öhdəliklərini icra etmədikdə intizam məsuliyyətinə, qanunvericilikdə nəzərdə tutulmuş hallarda isə digər məsuliyyətə cəlb edilirlər.

İşçi əmək funksiyasını tam və ya qismən yerinə yetirmədikdə, yaxud keyfiyyətsiz yerinə yetirdikdə Əmək Məcəlləsinin 10-cu maddəsində nəzərdə tutulan (əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək, əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək, əməyin təhlükəsizliyi normalarına əməl etmək, işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq, dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq, iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq, fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını (qətnamələrini) yerinə yetirmək və əmək qanunvericiliyinin tələblərinə əməl etmək), həmçinin əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifələrini, müəssisədaxili intizam qaydalarını pozduqda işəgötürən ona töhmət, sonuncu xəbərdarlıqla şiddətli töhmət verə, kollektiv müqavilələrdə nəzərdə tutulmuşdursa, aylıq əməkhaqqının 1/4-i məbləğindən çox olmamaq şərtilə cərimə edə və əmək müqaviləsini Əmək Məcəlləsinin 70-ci maddəsinin "ç" bəndi ilə (işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud Əmək Məcəlləsinin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda) ləğv edə bilər.

İşəgötürən intizam tənbehini verərkən işçinin şəxsiyyətini, kollektivdə nüfuzunu, peşəkarlıq səviyyəsini, onun törətdiyi xətanın xarakterini nəzərə almalıdır. Bu maddənin ikinci hissəsində göstərilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan işçiyə yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi sayılmır. İşəgötürənin bu maddədə nəzərdə tutulmuş intizam məsuliyyətinə cəlb edilməsi onun işəgötürəni hesab edilən vəzifəli şəxs, müəssisənin mülkiyyətçisi, müəssisə dövlət mülkiyyətində olduqda isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. İşəgötürən inzibati və ya cinayət məsuliyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada cəlb edilir.

İntizam tənbehi verilməmişdən əvvəl işəgötürən işçidən yazılı izahatın verilməsini tələb edir. İşçinin yazılı izahat verməkdən imtina etməsi ona intizam tənbehi verilməsini istisna etmir. İntizam tənbehi işçi tərəfindən əmək və ya icra intizamının pozulduğu aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. İşçinin xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir. İntizam xətasının törədildiyi gündən altı ay keçdikdən sonra işçiyə intizam tənbehi verilə bilməz. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin (yoxlanılmasının, təftişinin aparılmasının) nəticələri ilə aşkar edilmiş vəzifə hüquqpozması ilə bağlı intizam xətalarına görə isə işçiyə həmin xətalar törədildiyi gündən iki il keçdikdən sonra intizam tənbehi verilə bilməz.

İntizam tənbehi yalnız işçi ilə əmək müqaviləsi bağlamaq, onun şərtlərini dəyişdirmək və ona xitam vermək səlahiyyətinə malik olan işəgötürən tərəfindən verilə bilər. Müəssisənin nizamnaməsində (əsasnaməsində) başqa hal nəzərdə tutulmayıbsa, işəgötürən işçilərə intizam tənbehi vermək səlahiyyətini əmri (sərəncamı, qərarı) ilə özünün müavinlərindən birinə, müəssisədən kənarda yerləşən struktur bölməsinin rəhbərinə həvalə edə bilər. Bir intizam xətasına görə yalnız bir intizam tənbehi verilir. Bir dəfə törədilən bir intizam xətasına görə eyni zamanda bir neçə intizam tənbehi verilə bilməz. İntizam tənbehi işçiyə işdə olduğu iş günü ərzində verilə bilər. Məzuniyyətdə, ezamiyyətdə olan, əmək qabiliyyətini müvəqqəti itirdiyi müddət ərzində işçiyə intizam tənbehi verilə bilməz. İntizam tənbehi verilməsi barədə əmrdə (sərəncamda, qərarda) işçinin şərəf və ləyaqətini alçaldan, onun şəxsiyyətini, mənəvi hisslərini gözdən salan, habelə intizamsızlığına görə qisas almaq motivli məlumatların göstərilməsi yolverilməzdir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## Yerli dərman bitki qarışığı yeni paketlərdə satışa çıxarılıb

*Naxçıvan Muxtar Respublikasında flora biomüxtəlifliyində faydalı bitkilər, xüsusilə müalicəvi təsiri olan 800-ə qədər dərman bitkisi vardır ki, onlardan da 30 növü rəsmi dərman bitkisi olmaqla bərabər, həm də təbii ehtiyatı çoxdur.*

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşları 2003-cü ildən muxtar respublika ərazisinə təşkil edilən ekspedisiyalar vasitəsilə həmin dərman bitkilərinin yayılma zonalarını müəyyənləşdirib, belə bitkilərin tərkibindəki bioaktiv maddələri aşkarlayıb və həmin maddələrin ayrı-ayrı xəstəliklərdə müalicəvi əhəmiyyətlərini öyrəniblər. Bu istiqamətdə aparılan tədqiqatların nəticəsi olaraq "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" adlı kitab nəşr edilib. Hal-hazırda institutun bir qrup əməkdaşı gigiyenik qaydada, müxtəlif xəstəliklərin müalicəsində istifadə edilməsi üçün xüsusi təcrübələrlə yoxlanılmış reseptlər əsasında, təqribən, 100-dən çox bitkidən istifadə edərək dərman bitkisi qarışığı hazırlayır. Bu dərmanlar Naxçıvan şəhərində, əhali arasında dərman bitkilərinə tələbat artdıqda isə regionumuzda müxtəlif əczaxanalarda satışa verilib. Kağız paketlərdə satışa verilən və reklamı bir o qədər də gözə çarpmayan dərman paketləri bu günlərdə yeni qutularda satışa çıxarılıb.

Qeyd edək ki, hazırlanan dərman bitkilərinin qarışıqları hələlik 16 adda – ürək və qan-damar sistemi, mədə-bağırsaq, qaraciyər, duzlaşma, şəkər və digər xəstəliklərin müalicəsində istifadə olunur. Paketin üzərində qarışığın tərkibi, istifadə qaydası və istehsal tarixi göstərilməklə yanaşı, həm də həkimlə məsləhətləşmənin vacibliyi bildirilir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 5